# «Bölgələrdən paytaxta» adlı layihənin növbəti təqdimatı Qəbələyə həsr olunmuşdur










Mədəniyyət və Turizm Nazirliyinin «Bölgələrdən paytaxta» adlı yeni layihəsinə start verilmişdir. Layihənin məqsədi Azərbaycan mədəniyyətinin tarixi və müasir zənginliklərini, regionların adət-ənənələrini, mətbəx nümunələrini, sosial-iqtisadi inkişafını, el sənətkarlığını, bədii kollektivlərin və incəsənət ustalarının çıxışlarını nümayiş etdirmək, turizm imkanlarını təbliğ etməkdir. Layihə çərçivəsində Masallı, Qəbələ, Quba, Şəki, Gədəbəy, Abşeron, Gəncə və İsmayıllı rayonlarının Bakı şəhərində mütəmadi tədbirləri keçiriləcək. Masallı rayonuna həsr olunmuş təqdimat fevralın 2-də keçirilmişdir. Proqram çərçivəsində növbəti tədbir Qəbələyə həsr olunmuşdur.

Tədbir Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə martın 2-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında keçirilmişdir. İzdihamlı təqdimat mərasimində paytaxt ziyalıları, Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov və Bakı şəhərində yaşayan qəbələlilər iştirak edirdilər . Tədbir iştirakçıları əvvəlcə Qəbələ rayonunun sosial-iqtisadi inkişafını, zəngin mədəniyyətini, adət-ənənələrini, mətbəx nümunələrini, dekorativ-tətbiqi sənət ustalarının əl işlərini, bölgənin turizm imkanlarını əks etdirən sərgi ilə tanış olmuşlar.

Sonra tədbirdə iştirak edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış edərək son illərdə Azərbaycanda mədəniyyət və turizm sahəsinin inkişafı istiqamətində görülən ardıcıl tədbirlərin regionlara da öz müsbət təsirini göstərdiyini bildirmişdir. Nazir qeyd etmişdir ki, dövlət başçısı tərəfindən regionların sosial-iqtisadi inkişafına təkan verən Dövlət proqramlarının qəbul olunması və icrası nəticəsində bölgələrdə çoxlu sayda yeni muzey, kitabxana, musiqi məktəbi, mədəniyyət mərkəzləri istifadəyə verilmiş, tarixi abidələrin bərpası istiqamətində mühüm işlər görülmüşdür. O, regionlarda respublika səviyyəli tədbirlərlə yanaşı beynəlxalq tədbirlərin təşkilinin artıq ənənə halını aldığını vurğulamışdır. Əbülfəs Qarayev çıxışında Azərbaycanın qədim və zəngin mədəniyyətinin geniş təbliğ edilməsi, regionlararası mübadilənin gücləndirilməsi, bölgələrin mədəni və turizm potensialının nümayiş etdirilməsi məqsədilə il boyu Bakı şəhərində respublikanın şəhər və rayonlarının incəsənət ustalarının “Bölgələrdən paytaxta” adlı mədəni tədbirlərinin təşkil olunacağına diqqət çəkmiş, bu təqdimatların hər bir regionun qədim tarixinin, ənənələrinin, incəsənət nümunələrinin daha geniş formada tanıdılmasına, yeni-yeni istedadların üzə çıxarılmasına və Azərbaycan mədəniyyətinin inkişafına töhfələr verəcəyini söyləmişdir.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxışında son illər rayonda reallaşan layihələrdən, həyata keçirilən işlərdən, bölgənin inkişafı naminə icra edilən əhəmiyyətli proqramlardan söz açmışdır. Səbuhi Abdullayev çıxışına davam edərək ölkəmizdə milli-mənəvi dəyərlərin, adət və ənənələrin qorunub saxlanması, daha da inkişaf etdirilməsi sahəsində ümummilli liderimiz Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin xidmətlərini yüksək qiymətləndirmiş, “Bölgələrdən paytaxta” adlı yeni layihənin respublikamızın hər bir guşəsində olduğu kimi, Qəbələdə də böyük ruh yüksəkliyi ilə qarşılandığını bildirmişdir.

Natiq ölkəmizdə bütün sahələrdə olduğu kimi mədəniyyət və turizm işi ilə də bağlı uğurlu islahatların həyata keçirildiyini və Qəbələ rayonunda bu istiqamətdə xeyli işlər görüldüyünü, eləcə də burada bir sıra beynəlxalq tədbirlərə, forumlara, sammitlərə, beynəlxalq musiqi festivallarına və idman yarışlarına ev sahibliyi missiyasının yerinə yetirildiyini diqqətə çatdırmışdır.

Rayonda dünya standartlarına cavab verən otellər komplekslərinin, idman-istirahət mərkəzlərinin, turizm infrastrukturunun yaradıldığını deyən Səbuhi Abdullayev ötən il bölgəyə 50 minə yaxın turistin gəldiyini bildirmişdir.

Rəsmi hissənin yekununda mədəniyyət nazirliyinə və rayon icra hakimiyyətinə xatirə hədiyyələri təqdim olunmuş, Qəbələnin sosial-iqtisadi inkişafından, müasir tərəqqisindən, turizm imkanlarından, zəngin mədəniyyətindən bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Gecədə rayonun musiqi kollektivləri və incəsənət ustaları geniş, rəngarəng proqramla çıxış etmiş və iştirakçıların sürəkli alqışlarını qazanmışlar.

Tədbir tamaşaçılarda xoş təəssürat yaratmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**